**Tarix və onun problemləri, № 2 2013**

**NURLAN ABBASOV**
***BDU-nun Tarix fakültəsi***
**E-mail: nurlan-abbasov@mail.ru**

# "KITABI-DƏDƏ QORQUD" BOYLARINDA OĞUZ-BIZANS ƏLAQƏLƏRININ ƏKSI

***Açar sözlər:*** *Kitabi-Dədə Qorqud, Oğuz, Bizans, Kiçik Asiya, Ağqoyunlu, boy, Trabzon.*
***Ключевые слова:*** *«Книга моего Деда Коркида», огуз, Византия, Малая Азия, Ак-Коюнлу, бой, Трапезунд*
***Key words:*** *Kitabi-Dede Korkud, Oghuz, Byzantine, Minor Asia, boy, Trabzon.*

"Kitabi-Dədə Qorqud" eposu Azərbaycan xalqının gürcü-qıpçaq işğallarına qarşı mübarizəsini əks etdirməklə yanaşı, Azərbaycan tayfaları olan Ağqoyunluların Bizansla və Kiçik Asiyada öz mövcudluğunu qoruyub saxlaya bilmiş Trabzon imperiyası ilə də münasibətlərini öyrənmək üçün qiymətli mənbədir.

Oğuzların Kiçik Asiyada Bizansla apardıqları mübarizə və monqol dövrünün başa çatmasından sonra yenidən bölgədə hegemon qüvvəyə çevrilməsi öz əksini bu və ya digər dərəcədə eposda tapmışdır. Ağqoyunluların Kiçik Asiyada mövcudluğunu qoruyub saxlamış yunan mülkləri ilə münasibətləri öz əksini III boyda ("Baybörənin oğlu Bamsı Beyrək boyu"), VI boyda ("Qanlı Qoca oğlu Qanturalı boyu") və VII boyda ("Qazlıq Qoca oğlu Yeynək boyu") tapmışdır.

Yuxarıda oğuz-qıpçaq münasibətlərinin dastanda əksi məsələsinə toxunarkən, haqqında danışılan hadisələrin XI-XII əsrlərdə Cənubi Qafqazda baş verən hadisələrin əksi olduğunu qeyd etmişdik. Oğuzların Kiçik Asiya yunan mülkləri ilə münasibətləri və regionda siyasi ağalıq uğrunda mübarizəyə başlamaları dövrü isə XIV əsrin ortalarında – Hülakülər dövlətinin zəiflədiyi dövrə aid edilir.

Boyları əks etdirdikləri tarixi hadisələrə görə müqayisə etsək, bəzi boylar arasında ən azı 200 illik fərq nəzərə çarpmış olur. Buna görə tədqiqatçılar iki boyun "Duxa Qoca oğlu Dəli Domrul boyu"nun və "Qanlı Qoca oğlu Qanturalı boyu"nun eposa sonradan əlavə edildiyini göstərirlər [1, s.190]. Bartold bu haqda yazır ki, 5 və 6-cı boyların başqalarından fərqi ondadır ki, yalnız bu iki boyda nə bütün oğuzların başçısı "xanlar xanı" Bayandur xan, nə baş Bahadır Salur Qazan, nə də qalan boyların digər iştirakçıları yoxdur" [1, s.110]. Jirmunski bu iki boyun digərləri ilə əlaqəsinin olmamasının onların sonradan meydana gəlməsi və formal olaraq Dədə Qorqud və "Oğuz əsri" silkinə daxil edilməsi ilə izah etmişdir [2, s.190].

Səlcuq dövləti 1225-1258-ci illərdə monqolların yürüşləri zamanı qəti olaraq süquta uğradı. Monqolların hakimiyyətinin zəifləməsi ilə əlaqədar olaraq XIV əsrin əvvəllərindən etibarən Cənubi Qafqaz və Şərqi Anadoluda oğuz boylarının Qaraqoyunlu və Ağqoyunlu tayfa ittifaqları meydana gəlir və onlar regionda hakimiyyəti ələ keçirmək iddiası ilə çıxış edən real siyasi-hərbi qüvvə əhəmiyyəti kəsb etməyə başlayırlar [2].

Tədqiqatçı V.Jirmunski eposun bir sıra mühüm boylarında adı çəkilən "xanlar xanı" Bayandur xanın oğuzların epik hökmdarına çevrilməsini oğuz tayfa birliyi olan Ağqoyunlu Bayandurların XIV əsrin ortalarından etibarən Kiçik Asiyada hegemon güvvəyə çevrilməsi ilə bağlayır [3, s.180]. Tədqiqatçının nöqteyi-nəzərindən belə aydın olur ki, Bayandur xan sivil dastana Ağqoyunluların siyasi hakimiyyətinin legitimliyini sübut etmək üçün sonradan daxil

edilmiş və daha qədim olan Qazan bəy obrazını sıxışdırmışdır. Qazan bəy obrazını daha qədim-oğuzların Sırdərya boyunca yaşadıqları dövrə aid edən müəllif, əksinə, Bayandur xan obrazının sonradan oğuzların Kiçik Asiyadakı hegemonluq dövründə dastan boylarına daxil edilməsi nəticəsinə gəlir [4, s.180]. Müəllifin Bayandur xanı bir epik qəhrəman kimi oğuzların qədim epik-tarixi ənənəsindən ayırmaq və onu Ağqoyunlu Bayandurilərinin Kiçik Asiyadakı hərbi hegemonluq dövrü ilə əlaqələndirmək cəhdləri elmi cəhətdən əsassız hesab edilir [4, s.259].

Dastanda Bayandur xanın adının çəkilməsi, Ağqoyunlu tarixçisi Əbubəkr Tehraninin Bayandur xanı Uzun Həsənin uzaq əcdadlarından biri hesab etməsi dastanda adı keçən Bayandur xanla Ağqoyunluların hakim sülaləsinin çıxdığı Bayandur tayfasının geneoloji əlaqəsinin olmasını göstərməkdədir. Ümumilikdə isə, bir sıra boylarda təsvir edilən hadisələr dövrün mənbələrində öz əksini tapmış tarixi hadisələrlə müqayisə edildikdə, dastandakı bir sıra hadisələrin ağqoyunluların siyasi səhnəyə çıxdığı dövrə aid olduğunu göstərməkdədir.

"Kitabi-Dədə Qorqud" dastanında xüsusilə oğuzların hərbi uğurları və onların hərbi ekspansiyasının hüdudları öz əksini daha nəfis şəkildə tapmışdır.

Yuxarıda deyildiyi kimi oğuzların xarici əlaqələrinin dastanda əks olunmuş birinci istiqaməti Gürcüstandırsa, ikinci istiqamət isə dastanda müsəlman ənənəsinə uyğun olaraq Rum adlandırılan Bizansdır. Dastanda əks olunan məlumatlar Salur Qazanın başçılıq etdiyi oğuzların cənubda Mardinə, şimalda isə Trabzona yürüş etdiklərini göstərir. Dastanda Suriya cənubda, Rum (Bizans, indiki Türkiyə) qərbdə təsvir edilir və oğuz bahadırları şan-şöhrətlərinin bu diyara gedib çatması ilə fəxr edirlər [4, s.59]. Beləliklə, dastan məlumatlarından oğuzlara məlum olan ətraf aləmin hüdudlarını müəyyən etmək mümkündür.

"Kitabi-Dədə Qorqud" eposunda oğuz-Ağqoyunluların Bizans imperiyası və onun qolları olan Kiçik Asiya yunan dövlətləri ilə saxladıqları çoxtərəfli münasibətlərin bir sıra mühüm aspektlərinə toxunulmuşdur. Belə ki, dastan məlumatlarının təhlili göstərir ki, oğuz-Bizans əlaqələrini iki kontekstdə–siyasi rəqabət və müttəfiqlik əlaqələri kontekstində nəzərdən keçirmək daha məqsədəuyğundur.

Dastanın "Qanlı qoca oğlu Qanturalı" boyunda oğuz-Bizans daha dəqiq desək, oğuz-Trabzon əlaqələri nisbətən tarixi reallığa daha yaxın şəkildə öz əksini tapmışdır.

Oğuz-Trabzon əlaqələrindən bəhs edən VI boyda iki mühüm məqam – oğuzların Trabzonla qohumluq əlaqələri qurmaları və digər tərəfdən isə real tarixi şəxsiyyət olan Turəli bəyin adının bu boyda qorunub saxlanması diqqəti cəlb edir.

Dastanda öz əksini epik şəkildə tapmış Turəli bəyin Trabzon təkürünün qızı ilə evlənməsi faktının tarixi əsasa malik olması tədqiqatçılar tərəfindən qəbul edilir [5, s.193].

Trabzon imperatorlarının Ağqoyunlularla qohumluq əlaqələrinə girməsini digər tarixi mənbələr də təsdiq edir. Trabzon tarixçisi Mixail Panaretin verdiyi məlumatdan aydın olur ki, 1351-ci ildə oğuzlarla xoş münasibət qurmaq məqsədilə gənc imperator "Aleksey Komninin bacısı Mariya "amitatorların əmiri Turəlinin" oğlu Qutlu bəyə ərə verildi" [5, s.54; 57-58]. Müsəlman tarixçisi Əbubəkr Tehrani isə bu hadisəni bir qədər başqa tərzdə işıqlandırmışdır. Müəllifin yazdığına görə, Qutlu bəy Trabzon imperatoru tərəfindən məğlub edilmiş Yusif Duxarinin intiqamını almaq üçün Trabzona hücum edir. "...Duxarlıları maddi ziyandan və ev-eşik həsrətindən xilas etdi. Trabzon hökmdarının Təsbinə adlı qızını əsir götürdü və geri qayıtdı [6, s.40].

Bu məlumatın fərqli variantlarda öz əksini tapması bu hadisənin tarixi reallığını şübhə altına almır. Eposda verilən məlumatda isə mənbələrdə adı keçən məşhur Ağqoyunlu əmiri Turəlinin adının çəkilməsi isə bilavasitə yuxarıda xatırladılan tarixi hadisəyə işarədir.

Dastanda məhz Turəli bəyin adının çəkilməsi, onun epik qəhrəmanlar səviyyəsində təqdim edilməsinin mühüm siyasi ideoloji əsası olmuşdur. Çünki, Ağqoyunluların avtonon bir

qüvvə kimi regionun siyasi səhnəsində görünməsi məhz onların dövrünə təsadüf etməsidir. Fikrimizcə, bu dastanda tarixi reallığın əks olunmasının mühüm göstəricisi hesab olunmalıdır. Ağqoyunlu dövrünün məhşur tarixçisi Əbubəkr Tehrani Turəli bəyin şəxsiyyətini səciyyələndirərək yazırdı: "Onun əmirlik rütbəsi və nüfuzu o dərəcəyə çatdı ki, bütün aləmdə məhşur oldu. Belə ki, Misir və Şam ölkələrində ağqoyunlulara "Tur Əli" deyirdilər" [1, s.41].

Göründüyü kimi, Tur Əli bəyin "Kitabi-Dədə Qorqud" dastanına bir personaj kimi daxil edilməsi real əsasa malik idi. Bununla yanaşı, dastanda, mənbələrin əksinə olaraq, Trabzon imperatorunun qızı ilə Qutlu bəyin deyil, Tur Əli bəyin evlənməsinin göstərilməsi isə epik təhriflərlə izah oluna bilər. Ancaq, təhriflərə baxmayaraq, bu boyda daha bir tarixi həqiqət saxlanmışdır. Bu tarixi həqiqət ondan ibarətdir ki, yuxarıda sitat gətirdiyimiz mənbələrdən göründüyü kimi Trabzon imperatoru öz bacısını Qutlu bəyə Tür Əli bəyin hücumundan sonra verməyə razı olur. Başqa sözlə desək, ata öz oğlu üçün qız alır. Dastanda da bu hadisə məhz Qanlı qocanın öz oğlu Qanturalıya qız almaq üçün Trabzona gəlməsi şəklində təsvir edilib. "Qanlı qoca sevincək fərəhlə ayağa durdu. Ağ saqqalı pirani qocaları da yanına saldı. İç oğuzu axtardı qız tapmadı. Dolandı Daş oğuza gəldi, tapa bilmədi. Dolandı Trabzona gəldi. Sən demə, Trabzon təkürünün bir gözəl-göyçək yaraşıqlı qızı varmış" [7, s.183].

Trabzon imperatorlarının yuxarıda göstərilən siyasəti ilə bağlı ingilis tarixçisi V.Miller daha səlist şəkildə izah etmişdi. Müəllif göstərir ki, "Həmin dövrdə Trabzon şahzadələrinin gözəlliyi dillər əzbəri olmuşdu.... və onlar öz doğma dövlətinin qiymətli ixrac predmeti idilər. Bu nigah ittifaqlarının hesabına imperator Aleksey Konstantinopoldan Tiflisədək həm müsəlman, həm də xristian Şərqinin qaynı və qaynanası olmuşdu" [11, s.68-69].

Ağqoyunlu-Trabzon münasibətlərini təhlil edən tarixçi Petruşevskinin sözlərinə görə: "Trabzon imperatorlarının Ağqoyunlu padşahları ilə şəxsi nigah əlaqələri sayəsində birincilər ikincilərin sadiq müttəfiqləri oldu və Trabzon Qara dənizə digər çıxışı olmayan Ağqoyunlu dövləti üçün mühüm liman xidmətini yerinə yetirdi" [6, s.172].

Deməli, həm Trabzon, həm də Ağqoyunlu tərəfi müttəfiqlik əlaqələrinin qurulmasında eyni dərəcədə maraqlı olmuşdur. Ağqoyunlular bu dövrdə Osmanlı sultanı II Mehmedin apardığı gömrük siyasətindən olduqca böyük ziyan çəkdiklərindən Trabzonla əlaqələrinə xüsusi əhəmiyyət verirdilər. Türkiyəni Şərqdə alınan xam ipəyi toxuyaraq avropalılara hazır şəkildə satan ölkəyə çevirməyə çalışan sultan bu məqsədlə, cürbəcür məhdudlaşdırıcı tədbirlər vasitəsilə Azərbaycandan gətirilən xam ipəyin Türkiyədən xaricə aparılmasına mane olurdu. Ağqoyunluların Türkiyə ərazisi və Avropa ilə ticarət əlaqələri saxlamağa məcbur olduqlarını yaxşı başa düşən II Mehmet onlardan böyük miqdarda gömrük haqqı aldırtdırırdı. Azərbaycandan buraya gedən ipək karvanlarından iki yerdə–Trabzonda və Bizansda gömrük alınırdı [12, s.41].

Digər tərəfdən isə II Mehmedin Anadolu bəyliklərini və eləcə də Ağqoyunluları aradan qaldırmaq cəhdləri hər iki dövlətin münasibətlərində xüsusi səbəb olmuşdu. Bütün bunlar Osmanlı Türkiyəsinə qarşı Trabzonu Ağqoyunluların təbii müttəfiqinə çevirməklə yanaşı, həm də birincisini Avropa ölkələri ilə Ağqoyunlu dövləti arasında yaranan siyasi münasibətlərin vasitəçisinə çevirdi. Roma papaları II Mehmedə qarşı hərbi ittifaq təşkil etmək haqqında danışıqları məhz Trabzonda aparırdılar [7, s.135].

Bütün bunlar "Kitabi-Dədə Qorqud"da oğuz-Trabzon münasibətlərinin mühüm aspektlərin-nigah əlaqələrinin əksini tapması və bu məlumatın sinxron yazılı mənbənin məlumatları ilə üst-üstə düşdüyünü göstərməkdədir.

"Kitabi-Dədə Qorqud" dastanı oğuz türklərinin Kiçik Asiyada Bizans imperiyasının zəifləməsindən sonra müstəqilləşmiş ayrı-ayrı yunan mülkləri ilə münasibətlərini özündə əks etdirən qiymətli məxəz rolunu oynamaqdadır.

Düzdür, dastanda oğuzların Bizans mülkləri ilə münasibətləri epik tərzdə şərh edilir, göstərilən münasibətlər isə müsəlmanların "kafirlərə" qarşı apardıqları mübarizə kontekstində nəzərdən keçirilir. "Kafirlərə" qarşı mübarizə ideyası dövrün siyasi-ideoloji mühitindən və müsəlman katiblərin dastana etdikləri təəssübkeş əlavələrdən irəli gəlmişdir.

Bu baxımdan "Baybörənin oğlu Bamsı Beyrək boyu" xüsusi əhəmiyyət daşıyır. Göstərilən boyda oğuzların Şərqi Anadoluda möhkəmlənməsi dövrünə təsadüf etməsini, burada əks olunmuş coğrafi adların tarixi lokalizasiyası da sübut edir. Buna görə də boyda adı çəkilən yer adlarının lokalizasiyası haqqında elmi ədəbiyyatda mövcud olan fikirləri nəzərdən keçirmək məqsədəuyğundur.

"Bayböyrənin oğlu Bamsı Beyrək boyu"nda adı çəkilən yer adlarından biri Evnik qalasıdır. Boyda Evnik qalası ilə bərabər daha maraqlı bir yer adı çəkilir [3, s.151]. Boyda hadisə belə təsvir edilir: "... Bu yandan da tacirlər gəlib, böyük Dərbənd sərhəddində dayanmışdılar. Yarımasın Evnik qalasının kafirləri, onlardan casusluq etdilər. Tacirlər yatarkən qəflətən 500 kafir hücum edib, mallarını çaldılar-çapdılar" [3, s.151].

Boyda həmçinin haqqında danışılan regionda yerləşən daha bir qala haqqında məlumat verilir: "...Danışıq-razılıqla kafirin malını oğuz bəylərinə gətirdik. Böyük Dərbəndin Pasnik qalası yanında yatmışdıq. Evnik qalasından 500 kafir bizə hücum etdi" [3, s.53; 151].

Qeyd etmək lazımdır ki, tədqiqatçılardan E.Rossi və Orxan Şaik Gökyay tərəfindən Avnik [10. s.26], M.Ergin tərəfindən Evnik [8, s.118] kimi oxunan bu qala Ərzurum vilayətindəki Bizansın dairəsində yerləşməsi qeyd edilir [9, s.73-74].

Orxan Şaik Gökyayın [10, s.26] və M.Erginin [8, s.118] Pasin kimi oxuduqları Pasnik qalasının adının bu qalanın yerləşdiyi dairənin adından əmələ gəldiyi ehtimal edilir [9, s.104-105]. Qeyd etmək lazımdır ki, bu ehtimallar V.Bartold tərəfindən də təsdiq edilmiş və "Kitabi-Dədə Qorqudun" 1950-ci ildə Bakıda həyata keçirilmiş rusca nəşrində də öz əksini tapmışdır.

Beləliklə, tədqiqatçıların gəldiyi ümumi rəydən belə nəticə çıxarmaq olar ki, dastanda adı çəkilən bu coğrafi məkanlar Ərzurum vilayətinin cənub istiqamətində yerləşmişdir. Qədim dövr tarixçilərinin vaxtilə Fasiana adlandırdığı yer indi məhz Basian dərəsi adlanır. Həmçinin müasir Türkiyə ərazisində Pasinler adlı kənd də mövcuddur. Mətndə Dərbənd adının çəkilməsi isə heç də bunu indiki Dərbəndlə eyniləşdirməyə əsas vermir. Gətirilən iqtibaslar da söhbətin məhz Şərqi Anadolu ərazisindən getdiyini göstərməkdədir.

Yuxarıda göstərilən boyda tarixi gerçəkliklə uyğun gələn mühüm toponimlərdən biri də Bayburd qalasıdır. Ərzurumdan cənub-qərbdə yerləşən Bayburutun adının boyda çəkilməsi oğuzların Şərqi Anadoluda hegemonluq uğrunda mübarizə tarixinə işıq salmaqla yanaşı, həm də haqqında danışılan Ayğqoyunlu–Bizans münasibətlərinin yaranması dövrünü müəyyənləşdirmək imkanı verir.

Dastanın verdiyi məlumatlardan oğuzların bizanslılarla, daha dəqiq desək, Bayburd qalasının hakimi ilə düşmənçilik münasibətlərində olduqları məlumdur. Bu düşmənçiliyin kökü epik ənənəyə uyğun olaraq düşmənçiliyin qadın üstündə baş verdiyi göstərilir: "...Yarmasın kafirin casusu, bunları görüb, getdi Bayburd hasarının bəyinə xəbər verdi. Dedi: "Nə oturmusan, haltanun, Baybican bəy sənə verəcəyi qızı beyrəyə verdi. Bu gün gəlin gedəcəkdir" [3, s.151]. Boyda təsvir edilən hadisələrdən Bayburd hakiminin Beyrəyi 39 igidlə birlikdə əsir olduğu və 16 il əsirlikdə qaldığı [3, s.151] anlaşılır. Beyrəyin ölüm xəbərini gətirən Yalıncığın onun harada öldürülməsini qeyd etməsi də təsvir edilən hadisənin baş verdiyi məkanı aydınlaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır. Yalıncıq Beyrəyin ölümü ilə bağlı məlumat verir: "Beyrəyi Dərbənddə öldürmüşdülər, bu da nişanıdır, sultanım:" [3, s.156] deyir. Dərbənd adının çəkilməsi yuxarıda söhbətin Şərqi Anadoludakı coğrafi məkandan getdiyini bir

daha təsdiqləməkdədir. Əks təqdirdə Bayburt və Dəmirqapı Dərbəndin bir-birindən əks istiqamətdə və uzaqda yerləşməsi, dastanda bir qədər yanlışlığa yol verilməsini də istisna edir.

Bayburtun oğuzlar tərəfindən alınması məsələsinə tədqiqatçılar tərəfindən müəyyən qədər aydınlıq gətirilmişdir. Trabzon imperiyası tarixinin görkəmli tədqiqatçısı F.Uspenskinin göstəridiyinə görə artıq 1360-cı ildə Bayburutda müsəlman əmiri hakimlik edirdi [7, s.115]. Bu fakt ingilis tədqiqatçısı Hort tərəfindən də təsdiq edilir [13, s.112].

Deməli, Bayburtun oğuzlar tərəfindən 1360-cı ilədək alınmasını nəzərə alsaq, onda, dastanda göstərilən, Beyrəyin əsir aparan "kafir bəyin" Bayburtda təxminən XIV əsrin ortalarında hakimlik etdiyi mülahizəsini irəli sürmək olar.

Boyda Bayburd qalasının alınması xüsusilə aydın şəkildə təsvir edilmişdir: "Qazan bəy dedi: "Gəl muradına yetiş!" Beyrək dedi: "Yoldaşlarımı qurtarmayınca, Bayburt qalasını almayınca muradıma çatmayım!" [3, s.164]. Beləliklə, Qalın oğuz bəyləri atlanaraq Bayburd hasarında "kafirlərlə" döyüşə başlayır və qalanı alırlar.

Yuxarıda eposdan gətirilən dəlillər və onların mənbələrdə, eləcə də tədqiqatçıların mülahizələri ilə tutuşdurulması "Kitabi-Dədə Qorqud" eposunun Azərbaycan tayfaları olan Ağqoyunluların Bizansın qalıqları olan dövlətlərlə qarşılıqlı münasibətlərinin müəyyən aspektlərini özündə əks etdirdiyini göstərdi. Məlumatların təhlili dastanda təsvir edilən hadisələrin oğuz - Ağqoyunlu tayfalarının Kiçik Asiyada siyasi səhnəyə çıxmaları və onların regionda hegemon qüvvəyə çevrildikləri dövrə təsadüf etdiyini göstərməkdədir. Yazılı sinxiron mənbələrin məlumatları ilə təsdiq olunan dastanda əksini tapmış informasiyalar Oğuz-Bizans münasibətlərinin siyasi rəqabət və sonralar isə müttəfiqlik zəminində inkişaf etməsini bir daha təsdiqləyir.

## ƏDƏBIYYAT

1.Əbubəkr Tehrani Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edəni R.Şükürova. Bakı- "Elm" 1998, 335 səh.
2.İbrahimov C.M. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, APİ nəşri, 1958. 209 səh.
3."Kitabi-Dədə Qorqud". Bakı,"Yazıçı" 1988. 256 səh.
4.Бартольд В.В. Турецкий эпос и Кавказ. Книга моего Деда Коркута. М.-Л. изд.АН СССР, 1962. 300 с.
5.Жирмунский В.М. А.Н.Коноков "Книга моего Деда Коркута. Огузский героический эпос. /Пер.академика В.В.Бартолда. АН СССР. М-Л. 1962.
6.Петрушевский И.П. Государства Азербайджана в XV в..//Сборник статей по истории Азербайджана. Выпуск 1. Б., 1949. səh.172.
7.Успенский И.Ф. Очерки из истории трапезунтской империи. Л., 1929.
8.Muharrem Ergin. Dede Korkut kitabı. Ankar, 1958. 76 səhifə.
9.Kızıroğlu M. Fahrettin. Dede-Korkut oğuznameleri. I kitap. İstanbul, 1952. 255 səhifə.
10.Orhan Şaik Gökyay. Dede Korkut. İstanbul, 1938. 111 səhifə.
11.Miller W. Trebirond, the last Greek empire. London 1926.
12.Anhegger Robert. İnalcik Halil kanunname-i sultani-i ber müceb-i ort-i Osmani. Ankara, 1956.
13.Huart Cl. Baiburt El. N.Ed., t.I, Leiden-London, 1959.

**Tarix və onun problemləri, № 2 2013**

**NURLAN ABBASOV**
***Исторический факультет БГУ***

## ОТРАЖЕНИЕ ОГУЗА-ВИЗАНТИЙСКИХ ОТНОШЕНИЙ В ЭПОСЕ «КНИГА МОЕГО ДЕДА КОРКУТА»

В статье на основе всестороннего исследования эпоса «Книга моего Деда Коркуда» делается вывод, что между огузскими племенами и христианской Византийской империей существовали политические-экономические и культурные связи. Так же в статье раскрывается враждебная политика и враждебные действия Византии по отношении Огузов. Особо подчеркивается тот факт, что именно из-за враждебных действий и корыстных планов Византии огузы их называли и «кафирами» – неверными.

**NURLAN ABBASOV**
***The history faculty of Baku State University***

## THE REFLECTION OF OGUZ-BYZANTINE RELATIONS IN "KITABI-DEDE KORKUD" EPHOS

The article gives wide information abaut socio-economic and cultural relations between christian Byzantine and oghuz nation in "Kitabi-Dede Korkud" ephos. There has been reflected plans of Byzantine, which she designed against oghuz nation. Simultanlously, there was specially stressed that? political plans of Byzantine against oghuz tribes made tham call Byzantinians "pagans".

*Rəyçilər: t.e.d.A.İsgəndərov, t.e.d.S.Məmmədov*
*Bakı Dövlət Universitetinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının 06 fevral 2013-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №5).*